# İki müharibənin qəhrəmanları

**Vətən müharibəsində qazandığımız qələbəyə görə xalqımız bu gün başda Ali Baş Komandan İlham Əliyev olmaqla, müzəffər ordumuzun hər bir döyüşçüsünün vətənpərvərlik duyğularından danışır. Çünki onların qazandığı Zəfər xalqımıza qürur hissi yaşadır.**




28 il Ermənistanın işğalı altında qalan Kəlbəcər də istər Birinci, istərsə də İkinci Qarabağ savaşlarında xeyli övladını Vətənə qurban verib. Canlarını ana torpağa fəda edən igid şəhidlərimizin şərəfli ömür yollarına həsr olunan neçə-neçə kitablar yazılıb, videoçarxlar hazırlanıb.

Bu günlərdə sosial şəbəkədə Kəlbəcər rayonunun Çaykənd kənd inzibati ərazisinə daxil olan bir neçə yaşayış məntəqəsində dünyaya göz açmış və Vətənin bütövlüyü uğrunda şəhid olan igidlərimizin şərəfinə stend hazırlandığının şahidinə çevrildik. Bu, Kəlbəcərə qayıdışa bir töhfə kimi də dəyərləndirilir.

Xatırladaq ki, Kəlbəcər rayonunun Çaykənd kənd ərazisinə daxil olan yaşayış məntəqələrinin ilk şəhidləri Məhərrəmov Zabil Gəray oğlu, Verdiyev Hafiz İman oğlu, Məmmədov Qardaşxan Rəhim oğlu olub.

Zabil Gəray oğlu Verdiyev, Hafiz İman oğlu Məhərrəmov 1991-1992-ci illərdə yeni yaradılan Milli Ordunun ilk əsgərləri, Məmmədov Qardaşxan Rəhim oğlu isə könüllü döyüşçülərdən idi. Hər üçü 1992-ci ildə Azərbaycan-Ermənistan sərhədində (Kəlbəcər rayonunun Söyüdlü zastavasında) gedən döyüşlərdə həlak olublar.

Bu stendin hazırlanması barədə məlumat verən Çaykənd kənd sakimi Rizvan Atayev qeyd edir ki, Balaxanov Surxay Mürsəl oğlu hərbi xidmətdən sonra Rusiyada polis orqanlarında çalışırdı: "Ermənilərin Azərbaycana qarşı təxribata başladığı vaxtlar xidmətini Vətəndə keçirmək üçün doğma yurduna dönür. Kəlbəcər Rayon Polis Şöbəsində xidməti vəzifəsini yerinə yetirərkən 1993-cü ilin yanvar ayında Sərsəng su anbarı ətrafında gedən döyüşlərdə həlak olur. Ailəli idi, 2 övladı var. Atayev Namiq Məsim oğlu o zamanlar Rusiyada ali məktəb tələbəsi idi. Hadisələr başlayanda yenicə məzun olmuş N.Atayev zabit kimi döyüşlərə atıldı. Goranboy, Ağdərə, Laçın istiqamətlərində gedən döyüşlərdə fəal iştirak etdi. 1993-cü ildə Kəlbəcərin işğalı günlərində itkin düşdü..."

Kəlbəcər Rayon İcra Hakimiyyəti başçısının Çaykənd kənd inzibati ərazi üzrə nümayəndəsi İsmayıl Verdiyev bildirir ki, ordumuzun digər bir qorxmaz, cəsur döyüşçüsü də Məmişov Etibar Xansuvar oğlu idi: "...Kəlbəcərin 1993-cü ilin aprel ayında işğalı günlərində Meydançayda gedən son döyüşlərdə qəhrəmancasına şəhid olub..."

Bu siyahıya daxil olan Atayev Əli Yunis oğlu isə Sovet Ordusunun tərkibində Almaniyada xidmət edib. Baş çavuş rütbəsində xidmətdən tərxis olunub. Qiyabi təhsil alan tələbə həm də istehsalatda çalışıb, baş mühasib işləyib. 1994-cü ildə Kəlbəcər uğrunda gedən döyüşlərdə həlak olub.

Sovet Ordusunda gizir kimi xidmət etmiş, məlum hadisələrlə əlaqədar Vətənə dönüb döyüşlərə atılmış Hacıyev Kamal Hüseyn oğlu da Milli Ordunun ilk peşəkar hərbçilərindən idi. Təəssüf ki, şərəfli döyüş yolu 1994-cü ildə "Kəlbəcərin azad edilməsi əməliyyatı"nda başa çatdı. Ailəli idi. 3 övladı var. Ailədə balaca bir Kamal da böyüyür.

Muxtarov Qəhrəman Məhəmməd oğlu da bu ərazi nümayəndəliyinin ilk şəhidlərindəndir. Yol-inşaat mühəndisi idi. Kəlbəcər-Ağdərə yolunda şəhid olub.

Zaur Seyfəddin oğlu Həsənli 2014-cü ildə Naxçıvan istiqamətində ermənilərin təxribatının qarşısını alarkən Vətənə canını qurban verib.

Şəhid və qazilərimizin dünyaya göz açdığı ailələr dövlət və hökumət, eləcə də xalqımız tərəfindən diqqət və qayğı ilə əhatə olunub. Şəhidlərimizin müqəddəs ruhlarına hörmət və ehtiram əlaməti olaraq görülən tədbirlər onların əbədiyaşarlığının bariz nümunəsidir. Hər birinizin ruhu qarşısında borcluyuq, Vətən oğulları!

İsmayıl Verdiyev onu da deyir ki, Vətənə gərək olan qəhrəman oğullarımızın müqəddəs adlarının unudulmaması üçün atılan hər bir addım təqdirəlayiqdir: "...Kəlbəcər də Vətən uğrunda belə oğullarını qurban verib və onların sayı yüzlərlədir. Hər birimizin borcu onların əziz xatirəsini əbədiləşdirmək və gələcək nəsillərə çatdırmaqdır. Kəlbəcərə qayıdışdan sonra onların hər birinin adı əbədiləşdiriləcək, o günə lap az qalıb. Bütün şəhid və qazi ata-anaları qarşısında baş əymək isə bir şərəfdir!"

***Məhəmməd NƏRİMANOĞLU,***
***"Azərbaycan"***